Ədalət.- 2023.- 13 oktyabr, №39.- S.6.



# Məmməd Araz yaradıcılığında Səməd Vurğun obrazı



**Ramiz Göyüş**
**Yazıçı - publisist**

**(əvvəli ötən sayımızda)**

"Səməd Vurğunla söhbət" şeiri son dərəcə aydın, gərgin, ciddi, taleyüklü və heyrətamizdir. Bu şeir ədəbiyyatımızın, poeziyamızın həmin dövr və gələcək dövrlər üçün vəziyyəti və sabah üçün çağırışıdır, müəllifin nigarançılığının, narahtçılığının ifadəsidir. Bu çağırışla müəllif yenə də Səməd Vurğuna müraciət edir, onunla dərdləşir ondan sonra poeziyamızda baş verən proseslər barədə məlumat verir, ondan kömək istəyir.

*...Sən gəlmədin bu axşama, səsin gəldi,*
*Səsin bir az qulağıma həzin gəldi.*
*Sonra bir az nəfəsinə qüvvət gəldi,*
*Çox xəbislər elə bildi Səməd gəldi:*
*Ön sırada titrədilər,*
*Ön sırada büdrədilər...*

Bu bircə bənd Səməd Vurğunun Azərbaycan poeziyasında mövqeyini müəyyənləşdirir.

Şeiri oxuduqca gənc şairin cəsarətinə heyran qalırsan. Səməd Vurğunun sağlığında onun "kölgəsində sürünənlər" indi onun vəfatından az müddət keçəndən sonra onun bədxahları, "nihilistlər" böyük şairin kölgəsini qılınclamağa, onu təftiş etməyə, qara yaxmağa başladılar:

*Fəqət mənim deyəcəyim bunlar deyil,*
*Sənə məchul həqiqətdən sənə deyim.*
*Səndən sonra səni bir az silkələdəik*
*Çox aradıq, çox çevirdik, çox elədik...*

Məmməd Araz, böyük şairin ətrafında, kölgəsində ömür sürənləri, riyakarları, ikiüzlü və nankorları şiddətlə qınayır və ittham edir:

*Bəzisi də üzdə sənin tərifini dil-dil ötdü,*
*Daldadasa, sağlığında min yol sənə dahi deyən,*
*Öz kölgəndə yallanaraq zingildəyən*
*Nankorları sapand etdi....*
*...Səndən sonra tənqid bir az yuxalıbdır,*
*Yaxşı-pisin çəki daşı yoxalıbdır...*
*...Nə gizlədim, həqiqəti şax deməyin*
*Doğru sözün " səni"çatmır*
*Atmacalar güllələmizin "səni" çatmır...*

Şeirin sonluğunda müəllif bir daha Səməd Vurğunun böyüklyüyünü poetik ifadələrlə aşağıdakı kimi təqdim edir:

*Səndən sonra*
*Görüşlərin hərarəti sənsizləşib,*
*Kürsülərin cəsarəti sənsizləşib,*
*Ağsaqqallar səxavəti sənsizləşib!...*
*Mən saymadım sənsizləşib daha nələr,*
*Axı niyə sənsizliyi gizlədirlər!...*

Səməd Vurğun haqqında yüzlərlə xatirələr, öçerklər, elmi-tənqidi məqalələr yazılıb. Süleyman Rəhimov, Mehdi Hüseyn, Hüseyn Arif, Bəxtiyar Vahabzadə kimi sənət korifeylərinin yaratdığı əsərlərinin baş qəhrəmanı Səməd Vurğun olmuşdur.

Xalq şairi Hüseyn Arifin Səməd Vurğunun həyat və yaradıcılığına həsr etdiyi "Yolda" poeması bu sarıdan ən qiymətli əsərlərdən biridir.

Qeyd etmək lazımdır ki, poema işıq üzü gördükdən sonra ədəbi came tərəfindən böyük müzakirələrə səbəb oldu. Səməd Vurğuna böyük məhəbbəti olan Məmməd Araz da poemaya biganə qala bilməzdi:

"Səməd Vurğun kimi böyük bir sənətkarın həyatını qələmə almaq, onun obrazını yaratmaq nə qədər şərəflidir! Lakin bu, şərəfli olduğu qədər də məsuliyyətli və çətindir. Əvvəla ona görə ki, S. Vurğunun ölümündən az bir müddət keçir, onun xitabət kürsülərini titrədən səsi hələ qulaqlarda, gülüşü dodaqlarda, saçlarının rəngi, gözlərinin dərin ifadələri, yerişi, hərəkəti xalqın yadındadır."

Məmməd Araz Səməd Vurğun haqqında fikirlərini davam etdirərərk yazırdı: "S.Vurğun müasir mövzuları məharətlə qələmə alan, poeziyanın yüksək zirvəsində dayanıb bu günün mürəkkəb hadisələrinə sənətkar projektoru salan "böyük bir filiz yatağını ələyib almazı daşdan seçən" şair idi. İllər ötdükcə, ədəbiyyatımız xalqın həyatına daha da yaxınlaşdıqca biz S.Vurğunun gücünü daha çox hiss edirik. Ona müraciət edirik. Ondan kömək istəyirik....O, az ömründə çox yaşadı, müasir dövrümüzün ən müasir və böyük şairlərindən oldu. Bu mənada onun obrazını yaratmaq şairdən hünər istəyir".

Və bu hünərdə Məmməd Araz da bulundu. Onun yazdığı yeddi poemadan biri-sonuncu poeması "Qayalara yazılan səs " adlanır. Poema çox maraqlı və cəlbedici təsvirlə başlayır. Müəllifin dili o qədər şirin,



bənzətmələri o qədər cəlbedicidir ki, poetik ifadələr oxucunu dərhal poemaya kökləyir, şair sanki şeir yazmır, sözlə rəsm çəkir:

*Bir qayanın şiş ucuna qonmuşdu qartal -*
*Bir az sivri vəziyyətdə: top gülləsitək...*
*... Sürünü də, çobanı da beləcə sanki*
*Bir tabloya rəsm etməyə saxlamışdılar:*
*Alaseyrək qara xallı bir palaz kimi*
*Ağ sürünü boz yamaca mıxlamışdılar*
*Çoban neylə uyutmuşdu qayanı, daşı;*
*Döşdə sürü məst olmuşdu,*
*Dərədə duman...*

Məmməd Araz bu poemada Səməd Vurğunun yeni obrazını yaratmışdır. Görkəmli tənqidçi və ədəbiyyatşünas, professor Vaqif Yusifli yazır: " Poema Səməd Vurğunun xatirəsinə həsr olunub. Səməd Vurğun burada YADDAŞ OBRAZ kimi iştirak edir. O, qoca bir çobanın xatirəsindən, yaddaşından bir nur kimi, işıq kimi gəlir. Çoban şairlə söhbətini olduğu kimi xatırlayır və bu xatirədə Səməd Vurğun heykəlləşir, qayalaşır.

Əgər Məmməd Arazın 50-60-cı illərdə böyük şairə həsr etdiyi şeirlərində S.Vurğunun yoxluğundan doğan dərin bir nigarançılıq hissi, bu hissin yaratdığı emosional gərginlik diqqəti cəlb edirdisə, "Qayalara yazılan səs"də şairin ölməzliyi ideyası qabarıqlaşdırılır. Çünki Səməd Vurğunun xatirəsi təkcə yaddaşlarda, ürəklərdə deyil, həm də təbiətin özündə, bulaqda, dağda, qayada, küləkdə yaşayır."

Necə gözəl iifadə edib poemanın məziyyətlərini hörmətli Vaqif müəllim.

*Çoban dedi: - Burda mənim muzeyim var,*
*Bu yana baxın,*
*Bulaq üstə qara daşa diqqətlə baxdıq: -*
*İri, köntöy hərflərlə həkk olunubdur:*
*"Səməd Vurğun su içibdir bu bulaqdan,*

**Sentyabr, 1952-ci il.**

Poemada Məmməd Arazın yaratdığı Səməd Vurğun , məhz Vaqif Yusifliyinin dediyi kimi, yaddaş obrazı kimi təqdim edilir. Səməd Vurğun təkcə poeziyamızda, ədbi məclislərdə, xitabət kürsüsündə alovlu çıxışları, qeyri-adi poetikası, tribunluğu ilə deyil, həm də, qarış-qarış gəzdiyi, vətənimizin hər güşəsində, hər kəndində, hər evdə, ovçu məclislərində, sadə zəhmət adamları ilə görüşlərində etdiyi söhbətləri, məclisləri, səxavəti, xeyirxahlıqlarıı ilə yaddaşlara köçüb və xatirələrdə yaşayır.

Səməd Vurğundan söhbət düşəndə Məmməd Araz deyirdi: "Səməd Vurğun həqiqətən, qeyri-adi istedad idi. O həm də sadə və vətəndaş idi". Məmməd Araz da məhz Səməd Vurğunun bu keyfiyyətlərindən yazır. Dağlar qoynunda məskən salmış ixtiyar bir çobanın qonağı olan Məmməd Araz onunla söhbətin üzərində qurduğu poemada Səməd Vurğunun sadə, səmimi və qeyri-adi xarakterini çobanın sözləri ilə ustalıqla oxycuya təqdim edir.

Poemanın hər sətri Səməd Vurğunun bütün xarakterini, bacarığını , istedadını oxucuya təqdim etməyə yönəlib, Müəlif çobanın sözləri ilə Səməd vurğunun ovçuluq məharətini , eyni zamanda onu ovçu sədaqətini, "Güllə atmamışdım bu səfərimdə, kəkliyi vurmadım,dedim oxusun. Günahı çox olub bu əllərin də, qaraquş sonuncu günahım olsun", "İnsan öləndə də dağlarda ölə,Dönə bir zirvənin dənər qarına", kimi ifadələri ilə Böyük şairi oxucuya olduğu kimi, həm də özü başa düşdüyü kimi tanıtmaq istəyir. Poemada Səməd Vurğunla Qoca çobanın dialoqu son dərəcə maraqlı notlarla təqdim edilir.b Həmin diloqun bir parçasını maraqlı olduğu üçün oxucuya təqdim edirəm.

***Bir de görüm: arağınan aran necədir?***
***Dedim:Sənin bulağınan aran necədir?***
***- Bir de görüm, hardan belə söz ehtiyatı?***
***- Bu dağlarda çox çapılıb Koroğlu atı,***
***Bizi təkcə dağ yaşatmır, saz-söz yaşadır,***
***Ta əzəldən qılıncımız sazla qoşadır.***

Çoban söhbətini davam etdirdikcə Səməd Vurğunun ömrü, günü, həyatı, səhfəsəhfə varaqlanır, kövrəkl xatirələr yumaq kimi çözülür, oxucunu Səməd Vurğun dünyasına səyahətə aparır. Bu xatirələrdə Böyük şairin sadəliyi də, səmimiliyi də, etibarı da, vəfası da, sədaqəti də müəllif tərəfindən son dərəcə qabarıq, həm də kövrək notlarla təqdim ediiilir:

Çobanlardan biri durub bu şeri dedi:

*"Üstündən karvan yeriməz,*
*Sıxdı dumanların, dağlar."*
*Özü şer oxumadı; yaşardı gözü.*
*Söz verdi ki: "gələn dəfə saz çallam özüm"...*
*...Dedim: bizə bəxşiş elə bir kitabını,*
*Dedi: Vallah, heç birisi yoxdu yanımda,*
*Ondan sonra tək bircə yol gəldi Muğana*

Qoca çobanın şair haqqında xatirələri bitib tükənmir: "Bir cüt çəkmə gətirmişdi qoca dostuna, bir də təzə qoşalülə - yağdaca durur. Çəkmə necə alınıbdı - eləcə durur, geyib qəbrə gedəcəyəm - vəsiyyətimdi...Ondan sonra bu dağlara yolu düşmədi, səsi gəldi, sözü gəldi, özü gəlmədi. Ondan sonra bu bulaqdan su içməmişəm, ondan sonra bulaq oldu - "Vurğun bulağı", adını da bu qayaya özüm yazmışam, bu da mənim əsərimdi.

***Biz gəlmişdik,***
***Gələn kimi kim düşdü yada? -***
***Bu dağların öz dilində danışan adam!***
***Bu dağların, bu daşların yaddaşı möhkəm,***
***Səbri ağır, cəbri ağır, qəzəbi ötkəm...***
***Kimi səslər bu el-oba?***
***Kimi oxuyar? -***
***Yaxına get, sual verib, özündən soruş.***
***Onu sevib, onu deyib, onu duyanlar***
***Onun qaya yaddaşına həkk olunurmuş...***

**Səməd Vurğun Məmməd Araz üçün ədəbi və milli meyar idi. Ancaq təkcə onun üçün yox elə bütün yaradıcılar üçün. Məmməd Araz deyirdi: "Bəli, Azərbaycan poeziyasına gəliş həmişə çətin olmuşdur. Hünərin var ortaya çıx. Burada Nizami, Xəqani, Nəsimi, Füzuli, Vaqif, Zakir, Sabir , Aşıq Ələsgər, S. Vurğun meyarları var". Ancaq təkcə sənətdə meyar deyildi, həm də şəxsiyyəti ilə meyar idi, Səməd Vurğun. Və Məmməd Araz özü də elə ustadı kimi həm sənətində, həm də şəxsiyyətində ədəbiyyatımızın və mənəviyyatımızın meyar ola bildi.**